BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Humanitar elmlər seriyası* *2005*

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA DÖVLƏT PROQRAMI[1]

**İ.X.ZEYNALOV**

XXI əsrin ilk illərindən tam dərk olunmağa başlandı ki, bilik «biliklərin istehsalı», inkişafın, tərəqqinin çox qüdrətli amilidir.

Ölkəmizin sosial-iqtisadi inkişaf problemlərinin hazırlanmasında, onun üzə çıxarılmasında Azərbaycan tarix elmi az rol oynamamışdır. Hələ XX yüzilliyin 70-ci illərində və 80-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi problemləri ilə bağlı tarixi təcrübənin öyrənilməsində, bu təcrübənin təkmilləşdirilməsində, onun tətbiqində tarix elmi ilə iqtisad elmi birlikdə çıxış etmişdir. Bir çox tarixçi alimlərimiz iqtisadiyyatın tarixinin öyrənilməsində çox ciddi işlər görmüşlər. Bu tədqiqatçıların elmi nəticələri respublika rəhbəri, ümumilli liderimiz Heydər Əliyev tərəfindən həmişə müdafiə olunmuş və istehsalatda istifadə olunmuşdur. Məhz bunun nəticəsi idi ki, Sovetlər Birliyində respublikamızın sosial-iqtisadi inkişaf sahəsindəki hüquqları məhdud xarakter daşısa da, respublika rəhbərliyi özünün Mərkəzdəki nüfuzundan istifadə etməklə 70-ci illərin əvvəllərində respublikanın ictimai-siyasi və iqtisadi həyatındakı çox mürəkkəb vəziyyəti təhlil edərək Azərbaycanın sosial-iqtisadi və mədəni inkişaf sahəsinin yüksəlməsi istiqamətləri və onların həlli yollarını müəyyənləşdirdi, nəticədə 70-ci illərdə çox uğurlu, bu günkü müstəqilliyimizin təməli olan heyrətamiz nəticələr əldə edildi. Azərbaycan dünyanın bir çox ölkələrindən irəlidə gedirdi. BMT-nin beynəlxalq müqayisələr proqramlarının metodologiyasına görə, hələ 70-ci illərdə Azərbaycan adambaşına düşən ümumdaxili məhsulun həcminə görə 220 ölkə içərisində 112-ci yeri tuturdu. Bu göstərici Yaxın Şərq ölkələrindən xeyli irəli və Türkiyənin müvafiq göstəricisinə bərabər idi. Bu xalqımızın yaradıcı əməyinin, dövlət və hökumətin tarixidir.

Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra, xüsusilə 1993-cü ilin iyununda Heydər Əliyevin respublikada hakimiyyətə gəlişindən sonra ölkəmizin sosial-iqtisadi və siyasi həyatında yeni inkişaf mərhələsi başladı. İlk növbədə 70-ci illərin tarixi təcrübəsindən istifadə edilməklə 1993-1995-ci illərdə ölkədə mövcud olmuş hakimiyyət boşluğu aradan qaldırıldı, separatçı qüvvələr

[1] Məqalədə 2004-cü ilədək olan məlumatlardan bəhs edilir.

və parçalama meylləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişinə cəhdlərin qarşısı alındı, dövlətçilik qorundu.

1994-cü ilin may ayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəs əldə olundu, «Əsrin müqaviləsi»- respublikamızın siyasi və iqtisadi-sosial maraqlarını, beynəlxalq aləmdə ona inamı təmin edəcək tarixi neft müqaviləsi imzalandı.

Beləliklə, ulu öndərimiz Heydər Əliyevin çox gərgin əməyi nəticəsində respublikada dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni sahələrdə əsaslı işlərə başlamaq üçün möhkəm təminat və şərait yaradıldı. İctimai-siyasi sabitliyin bərqərar olması, Azərbaycanda müstəqil dövlət quruculuğunun uğurla aparılmasına, yeni iqtisadi sistemin və münasibətlərin formalaşmasına imkan yarandı.

1995-ci ilin 12 noyabrında Müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu və Azərbaycan Parlamenti formalaşdı.

Azərbaycan qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurası Parlament Assambleyasının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

1995-ci ildən başlayaraq ölkədə bazar iqtisadiyyatına keçidlə bağlı islahatların aparılması üçün tədbirlər görüldü, islahatlar proqramı hazırlandı və həyata keçirilməyə başlandı.

Nəticədə, respublika iqtisadiyyatı böhran vəziyyətindən çıxarıldı, ölkədə makroiqtisadi sabitlik təmin edildi. Ümumdaxili məhsul istehsalı 1996-cı ildəki 1,5 %-dən 1999-cu ildə 7,4 %-ə, 2003-cü ildə isə 11,2 %-ə çatdırılmışdır.

1993-2000-ci illərdə sahibkarlığın inkişaf etdirilməsi və özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi sahəsində böyük, olduqca dəyərli tədbirdər həyata keçirilmişdir. Nəticədə Ümumi Daxili Məhsulda (ÜDM) özəl bölmənin payı sənayedə 53,4 %, kənd təsərrüfatında və ticarətdə isə 98 %, tikintidə 78 %, yükdaşımada 80 %-ə qədər yüksəlmişdir. Respublika üzrə torpaqların 99,4 %-i özəlləşdirilmiş, 1 milyon 39 min hektar torpaq sahəsi əkilib becərilmək üçün əhaliyə verilmişdir.

Dövlət rəhbərinin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərmanı ilə ölkədə dövlət quruculuğunun yeni mərhələsinə keçid başlandı.

Beləliklə, 1993-2003-cü illərdə ümummilli lider Heydər Əliyevin çox uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın mustəqilliyi möhkəmləndirildi, hüquqi, demokratik dövlət qurucu-

luğunda, ölkənin sosial-iqtisadi və mədəni quruculuğu sahələrində böyük irəliləyişlər əldə edildi.

Müstəqil Azərbaycan Respublikasında son 10 ildə həyata keçirilən iqtisadi islahatlar və sosial tədbirlər qısa zaman müddətində ölkədə mikroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmişdir. İqtisadi-sosial inkişaf meylləri və Azərbaycanda 1995-ci ildən başlayaraq həyata keçirilən islahatların, sosial-iqtisadi tədbirlərin nəticəsidir ki, iqtisadiyyatda mövcud olan gerilik, böhran vəziyyəti aradan qaldırılmış, inflyasiyanın səviyyəsi minimuma endirilmişdir. Nəticədə 1995-ci ilin ortalarından ölkə iqtisadiyyatında sabitləşmə, 1996-cı ildən etibarən isə yüksəliş başlamışdır.

2003-cü ildə 35 trilyon manatlıq ÜDM istehsal olunmuş və bu da 2002-ci illə müqayisədə 11,2 % çoxdur.

İqtisadiyyatın dinamik inkişafı respublika əhalisinin maddi həyat səviyyəsinin xeyli yaxşılaşmasına səbəb olmuş, adambaşına düşən ÜDM-in həcmi 2003-cü ildə 1995-ci ilə nisbətən 3 dəfə artaraq 4,3 milyon manat təşkil etmişdir. İqtisadi-sosial sahədə əldə edilən uğurlar islahatların düzgün aparılmasının nəticəsidir. İlk növbədə inflyasiya və büdcə kəsirinin qarşısı alınmışdır. 1988-ci ildən başlayaraq əhalinin real gəlirləri 2,3 dəfə, işləyənlərin orta aylıq əmək haqqı 6,4 dəfə artmışdır. Büdcəyə daxil olmalar 1,8 dəfə, əhalinin pensiyaları, əmək haqları, müavinətləri, ərzaq, tibbi ləvazimatlar üçün ayrılmalar 2,1 dəfə artırılmışdır. Həmçinin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq çox ciddi struktur dəyişiklikləri aparılmışdır. Nəticədə 48 mərkəzi və dövlət idarəetmə orqanı ləğv edilmişdir. Dövlət əmlakının özəlləşdirmə prosesi də uğurla həyata keçirilmişdir. 2004-cü ilədək 37 mindən çox kiçik, orta müəssisə və obyekt dövlət inhisarından çıxarılmış, 1500-ə qədər səhmdar cəmiyyət yaradılmışdır. 2003-cü ilin məlumatına görə 60 min qeyri-dövlət hüquqi şəxs və 125 min fiziki şəxs dövlət qeydiyyatından keçirilmişdir.

Neft sənayesində əldə edilən uğurlar respublika iqtisadiyyatının digər sahələrinin inkişafına da müsbət təsir göstərmişidir. 1998-2003-cü illərdə 27,9 milyard kubmetrdən çox qaz çıxarılmış, tələbatı ödəmək üçün isə hələ əlavə 7,7 milyard kubmetr qaz idxal olunmuş, bununla da qazla təmin edilən rayonların sayı 18-dən 52-yə çatmışdır.

Respublikada ictimai-siyasi, iqtisadi sabitlik xarici investorların Azərbaycana marağını artırmış, «Xarici investisiyanın qorunması haqqında» Qanun qəbul olunmuşdu. Bunun nəticəsidir ki, 2002-ci ildə Azərbaycana cəlb olunan birbaşa xarici investisiyanın həcmi 1,7 milyard dollar həcmində olub, bu da 2001-ci illə müqayisədə 600 milyon dollar çoxdur. Son illərdə, xüsusilə 1995- ci ildən başlayaraq respublika iqtisadiyyatının aparıcı sahələrinə investisiya qoyuluşu əhəmiyyətli dərəcədə artmışdır. Müstəqillik dövründə ölkə iqtisadiyyatına 16,5 milyard ABŞ dollarından çox investisiya qoyulmuşdur. Hazırda Azərbaycanda adambaşına düşən xarici investisiyanın həcmi MDB-də ən yüksək göstəricidir. 1995-2003-cü

illərdə əhalinin pul gəliri 3,6 dəfə, orta aylıq əmək haqqı 6 dəfə, aylıq pensiyanın orta məbləği isə 7,7 dəfə artmışdır.

İndi Azərbaycanın iqtisadi cəhətdən güclü dövlətə çevrilməsi, ölkənin Dünya İqtisadi Birliyinə daxil olması, sosial problemlərin həlli, əhalinin həyat səviyyəsinin yaxşılaşması üçün əsaslı zəmin yaradılmışdır.

«Əsrin müqaviləsi»nin imzalanmasından keçən son 10 il ərzində neft-qaz sənayesi xeyli inkişaf etmişdir. Bu müqavilə ölkənin ictimai-siyasi və iqtisadi həyatında XX əsrin ən böyük hadisələrindən biri kimi artıq öz əhəmiyyətini verməkdədir. 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyevin xüsusi fərmanı ilə Dövlət Neft Fondu yaradılmışdır. Burada başlıca məqsəd neft sənayesindən əldə olunan gəlirlərin səmərəli istifadəsini təmin etməkdən ibarətdir. Bu gün həmin fondda 800 milyon dollardan çox maliyyə vəsaiti toplanmışdır.

Neft strategiyasının inkişafında və Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsində Bakı-Supsa neft kəmərinin inkişafı mühüm yer tutmuşdur. Bakı-Supsa kəməri vasitəsilə 31 milyon tondan artıq Azərbaycan nefti nəql edilmiş və dünya bazarında satılmışdır. «Çıraq» yatağında hasil olunan Azərbaycan nefti indi artıq «Azəri Lay» adı altında Supsa limanından dünya bazarına ixrac olunmaqdadır. Hazırda Azərbaycan Respublikası Dövlət Neft şirkəti ilə ayrı-ayrı ölkələrin neft şirkətləri arasında imzalanmış müqavilələrin sayı 21-ə çatmışdır. Bunun nəticəsidir ki, hazırda ildə 16 mln. tondan çox xam neft hasil edən Azərbaycanda neft sənayesinin sürətli inkişafı təmin olunmuşdur. Hətta yaxın gələcəkdə xam neft hasilatının ildə 50-60 mln. tona çatdırılmsı nəzərdə tutulur. ARDNŞ-nin xam nefti iki istiqamətdə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri vasitəsilə ixrac olunur. Təkcə Bakı-Novorossiysk neft boru kəməri vasitəsilə ildə 2,5 mln. ton ARDNŞ nefti ixrac edilir.

Bakı-Supsa neft boru kəmərilə «Əsrin müqaviləsi» üzrə Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi çərçivəsində hasil edilən xam neft ixrac edilir. Bu boru xətti ilə ildə 6,5 milyon tona qədər xam neft ixrac üçün nəql edilir.

Azərbaycan nefti üçün əsas ixrac marşrutu olacaq Bakı-Ceyhan neft boru kəmərinin tikintisi isə yeridilən neft strategiyasının ana xəttini təşkil edir. Bu boru kəməri ildə 50 mln. ton xam neftin nəqlinə imkan verəcəkdir.

Ölkəmizdə torpaq islahatının uğurla həyata keçirilməsi və əldə edilən müsbət nəticələr də qeyri-neft bölməsinin inkişafına böyük təsir göstərir. Respublikada özəlləşdiriləcək torpaqlar demək olar ki, bütünlüklə öz sahiblərinə verilmişdir. Ölkənin ümumi ərazisinin 56,9 faizi, yəni 4,9 milyon hektarı dövlət mülkiyyətində saxlanılmış, 23,5 faizi, yəni 2,03 milyon hektarı bələdiyyə mülkiyyətinə, 19,6 faizi, yəni 1,7 milyon hektarı isə xüsusi mülkiyyətə ayrılmışdır. Qeyd edək ki, 2003-cü ilin əvvəllərinə kimi torpaq payı alacaq 874 min 565 ailədən 857 min 627 ailə torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ilə təmin edilmişdir ki, bu da 3 milyon

374 min 633 subyekt deməkdir. 2003-cü ildə olan məlumata görə xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan 1 milyon 395 min hektar sahədən 1 milyon 375 min 479 hektarı öz qanuni sahiblərinə verilmişdir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında qeyd olunur ki, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azalmasına nail olmaqdan ibarətdir».

Sənayenin digər sahələrində, xüsusilə də energetika sistemində kimya və neft kimyası, maşınqayırma və metallurgiya sənayesində intensiv inkişaf baş verməkdədir. Qısa müddətdə «Şimal» elektrik stansiyasında gücü 400 meqavat, 1 nömrəli Bakı İstilik Elektrik Mərkəzində gücü 106 meqavat olan buxar-qaz enerji blokları tikilmiş, Yenikənd Su elektrik Stansiyasının yenidən qurulması, bir sıra yüksək gərginlikli xətlərin və yardımçı stansiyaların texniki baxımdan xeyli dərəcədə yeniləşdirilməsi işləri də uğurla başa çatdırılmışdır. Hazırda respublikanın regionlarının sərvətlərindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək, Azərbaycanı iqtisadi cəhətdən güclü dövlətə çevirmək başlıca vəzifə olaraq qarşıda durur.

Qeyd olunan vəzifələrin həyata keçirilməsi AR Prezidentinin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli Fərmanında geniş əksini tapmışdır.

Fərmandan irəli gələn vəzifələrin həyata keçirilməsi respublikanın sosial-iqtisadi inkişafının, məşğulluğun səviyyəsinin yüksəldilməsinə, ölkə əhalisinin güzəranının daha da yaxşılaşdırılmasına təkan vermişdir.

Xalqımız 2003-cü il 24 oktyabrda keçirilmiş prezident seçkilərində İlham Əliyevə səs verməklə, Azərbaycanda Heydər Əliyev siyasətinə möhkəm inamlarını nümayiş etdirməklə, Azərbaycanın gələcəyinə, əldə edilmiş sosial-iqtisadi və mədəni nailiyyətlərin daha da inkişaf etdirilməsinə təminat yaratdılar.

Bunu İlham Əliyevin bir prezident kimi imzaladığı 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) haqqında» fevral 2004-cü il tarixli fərmanları və bu fərmanlardan irəli gələn məsələlərin həllinə başlanılması, əldə edilməkdə olan son illərin nəticələri (2003-2005-ci illər) bir daha sübut edir. Belə ki, 2004-cü ildə 1996-cı ildən başlayan iqtisadi tərəqqi uğurla davam etdirilmişdir. Qeyd olunan sahədə əsas göstə-

rici olan ümumi daxili məhsul istehsalı 2003-cü illə müqayisədə 10,2 faiz artmışdır.

2004-cü ildə Azərbaycanın sosial-iqtisadi inkişafında böyük irəliləyişlər baş verdi. 1996-cı ildən başlamış iqtisadi tərəqqi uğurla inkişaf etməkdə idi. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» fərmanı və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) haqqında».

11 fevral 2004-cü il tarixli fərmanının qəbul olunmasından bir il keçir. Proqram ölkə iqtisadiyyatında konkret vəzifələri müəyyənləşdirmişdir.

Dövlət Proqramının icrası nəticəsində 2004-cü ildə ÜDM-in strukturunda sənaye 38,1 faiz, kənd təsərrüfatı 11,4 faiz, tikinti kompleksi 13 faiz, ticarət və pullu xidmət 7,6 faiz, nəqliyyat 7 faiz, rabitə 2,5 faiz, digər sahələrin inkişafı isə 20,4 faiz təşkil etmişdir.

İqtisadiyyatın sənaye bölməsində məhsul istehsalı 2003-cü ilə nisbətən 5,7 faiz artmışdır.

İqtisadiyyatda kənd təsərrüfatının xüsusi çəkisi xeyli yüksəlmişdir. Taxıl istehsalı 2003-cü ilin nəticəsi ilə müqayisədə 4,9 faiz artıb, 2158,2 min ton taxıl məhsulu toplanıb. Əldə edilmiş taxıl məhsulunun 74,8 faizini buğda təşkil edib. Üzüm və pambıq istehsalına maraq artıb. Heyvandarlıqda sabit inkişaf davam edib.

Ölkə iqtisadiyyatının tikinti bölməsində də inkişaf nəzərə çarpacaq dərəcədə olub.

2004-cü ilin yekunlarına görə qeyri-neft sahələrinin inkişaf sürəti 20 faizi ötüb keçmişdir. İxracın strukturunda da müsbət meyllər müşahidə olunub. Qeyri-neft məhsullarının ixracı 2003-cü illə müqayisədə 72,5 faiz təşkil edib.

Bütün maliyyə mənbələri hesabına istifadə edilmiş investisiyanın 80,3 faizi sənaye sahələrinin inkişafına, 0,7 faizi kənd təsərrüfatına, 0,2 faizi tikintiyə, 1,1 faizi ticarət və xidmətə, 6,4 faizi nəqliyyata, 2,1 faizi rabitəyə, 6,2 faizi mənzil tikintisinə, 3 faizi digər sahələrə yönəlib.

2004-cü ildə Naxçıvan Beynəlxalq Aeroportu, Xaçmaz rayonunda «Qafqaz konserv zavodu», Abşeron rayonunda «Azbentonit» zavodu və digər əhəmiyyətli obyektlər istifadəyə verilmişdir. Bu ildə 1156,1 min kvadrat metr sahəsi olan yaşayış evləri, çoxlu sayda xəstəxana, poliklinika, ümumtəhsil məktəbləri, kitabxana, bərpa mərkəzləri istifadəyə verilib.

Bütün bunlar əhalinin sosial vəziyyətinin yaxşılaşmasına yönəlmişdir. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqının 483,4 min manat təşkil etməsi və 2003-cü ilə nisbətən 26,2 faiz artması da yuxarıda bəhs olunan irəliləyişin nəticəsidir.

Hazırda Azərbaycanın xarici ölkələrdə iqtisadi əlaqələri sürətlə genişlənməkdədir. Azərbaycan 116 xarici dövlətlə əmtəə mübadiləsi aparır.

Aparılmış təhlillər göstərir ki, Azərbaycanın yaxın və uzaq gələcəkdə sosial-iqtisadi tərəqqisinin ən birinci amili neft faktorudur. Bu siyasətin əsası isə ümumilli liderimiz Heydər Əliyevin çox böyük uzaqgörənliyinin nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması ilə təmin olunmuşdur. Bu amildən effektli istifadənin yolları da Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır. 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatının dünyaya inteqrasiya olunması, onun müstəqilliyinin təmin olunması, bütünlükdə xalqımızın inkişafı, onların maddi rifah halının yaxşılaşdırılması da daha çox neft siyasətinin düzgün həyata keçirilməsindən asılıdır.

Aparılmış təhlillər göstərir ki, təbii sərvətlərin bol olması hələ tərəqqi demək deyildir. Müasir dünyamızın bir çox neft ölkələri var. Buna misal olaraq Nigeriyanı, İraqı, Anqolanı və digərlərini göstərə bilərik. Bu ölkələrin zəngin təbii sərvətlərə malik olmasına baxmayaraq, yaşayış səviyyəsinə görə çox geridədirlər. Bu isə ilk növbədə qeyd olunan ölkələrdə milli dövlət mənafelərini əsas tutan inkişaf strategiyasının, siyasi sabitliyin olmaması ilə bağlıdır.

Bu ölkələrdən fərqli olaraq Heydər Əliyevin böyük zəhməti, gərgin əməyi hesabına Azərbaycanda 1993-2003-cü illərdə ölkənin, xalqın tərəqqisi üçün bütün təminatlar – ilk növbədə sabitlik, normal iş şəraiti yaradılmış, düzgün iqtisadi startegiya və onu həyata keçirməyin mütərəqqi yolları müəyyənləşdirilmişdir.

Bu günün iqtisadi və sosial nəticələrinə nəzər yetirdikdə tam aydın olur ki, Azərbaycanda həyata keçirilən islahatlar, ilk növbədə də iqtisadi islahatlar praktiki əhəmiyyətini verməkdədir və çox böyük uğurlar qazanılmaqdadır.

Azərbaycan iqtisadiyyatı, onun aparıcı sahələri olan sənaye, kənd təsərrüfatının yeni, önəmli strukturları yaradılmışdır. Bu sahələrin normal inkişafı təmin olunmuş, əmək məhsuldarlığı durmadan artmaqdadır.

Respublika prezidenti İlham Əliyev tərəfindən ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı tarixi sənədlər – Dövlət Proqramı, Azərbaycanın sosial-iqtisadi inkişafında əldə edilən uğurları davam etdirmək və müstəqil Azərbaycanın zamanın tələbinə uyğun sürətli inkişafının təmin etdirilməsində olduqca dəyərlidir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.
2. Əliyev H.Ə. Müstəqillik əbədidir. I-IV cildlər. Bakı, 1997.
3. Əliyev H.Ə. Müsəqillik yolu. Bakı, 1997.
4. Sultanov O.B. 80-ci illərin sonu-90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.
5. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı, 1996.
6. Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001.
7. «Azərbaycan», 30 oktyabr, 2004.
8. «İqtisadi islahatları sürətləndirməli və sosial yönümünü gücləndirməli»-«Xalq» qəzeti, 19 iyul, 1996.

9. «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında»-«Xalq» qəzeti, 30 deкabr, 2000.
10. «Sosial-iqtisadi inкişafın mühüm sənədi»-«Azərbaycan» qəzeti, 7 yanvar, 2004.
11. «2003-cü ildə ölкəmizin iqtisadi və sosial inкişafının yeкunları: Azərbaycan Respubliкası Dövlət Statistiкa Komitəsinin Məlumatı»-«Xalq» qəzeti, 7 fevral, 2004.
12. «Azərbaycan dinamiк inкişaf yolu ilə inamla irəliləyir»-«Xalq» qəzeti, 10 fevral, 2004.
13. «Sosial-iqtisadi inкişafın yeni mərhələsi»-«Azərbaycan» qəzeti, 17 fevral, 2004.
14. «İqtisadi inкişaf və mədəni yüкsəliş dövrü»-«Azərbaycan» qəzeti, 10 yanvar, 2005.
15. «Azərbaycan elminin inкişafında Heydər Əliyevin yolu»-«Azərbaycan» qəzeti, 13 fevral, 2005.
16. «Regionların inкişafı iqtisadi strategiyanın əsas istiqamətlərindən biridir»-«Azərbaycan» qəzeti, 24 noyabr, 2004.
17. «Siyasi sabitliк və sosial-iqtisadi inкişaf dövrünün daha bir uğurlu ili»-«Azərbaycan» qəzeti, 29 oкtyabr, 2004.

## ГОСУДАРСТВЕННАЯ ПРОГРАММА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

**И.Х.ЗЕЙНАЛОВ**

### РЕЗЮМЕ

Статья посвящена, подписанному президентом Азербайджанской Республики Ильхамом Алиевым «Программы социально-экономического развития регионов Азербайджанской Республики», задачам, вытекающих из этого документа и успехам достигнутых за прошедший с подписания указа год.

В статье, на основании фактов и интересных материалов, раскрывается исторический опыт социально-экономического развития республики, продолжение экономического курса и придание ему динамичности в современных условиях, создание приоритетных условий для дальнейшего совершенствования регионов республики.